***

Qayıdıb gedənlər gəlsə,
Belə olmaz gələn səfər.
Qulağıma gələn səsə
Qaçıramki sən deyilsən!

Qürurun kimə xoş olur?
Allah, bu adam daş olur.
Harda yaralı quş ölür,
Uçuramki sən deyilsən!

Həsrət əl-ayağımı qapır.
Harda itdim, hardan tapım?
Hərdən bir döyülür qapım,
Açıramki sən deyilsən!

***

Bu adamın ağrımayan gözləri,
ağrımağa başladı.
Ağrımayan barmağı,
ağrımayan qolları,
yorulmağa başladı...

Neçə ildi bu ağrıya
necə susub durarmuş?!
Gülə-gülə ağrımağa dözürmüş?!
Qaşlarında düyünlənən kədəri,
Vergül boyda gülüşüylə əzirmiş.

Gözlərindən gedən yola düzəldim,
Toxunduqca gülüşünə, duruldum.
Əlləriylə zikr elədim Tanrını,
Barmağına salxım-salxım vuruldum.

Gülə-gülə, sevdim gülün tikanın,
batmağına kim deyər ki, dözmədim?!
Bir közərən arzu qaldı gözümdə,
Budağının yanıq yerin üzmədim...

Otuz ilə nətər ayaq uydurub?!
Ağrılara necə gülüb, İlahi?!
Bu ürəklə bu dünyaya səhv gəlib
Bir nəfər də bilmir hələ kimdi bu
Hara girib, harda gizlin kövrəlib?

Mən bilirəm necə olur ağrımaq?!
İçin dolur, üzün gəlmir güləsən...
Bir də sənin əkizin var uzaqda.
Gəlib soyuq taleyinə baxasan,
Sənə necə oxşadığın görəsən...

Bu adamın ağrımayan gözləri,
ağlamağa başladı.
Ağrımayan barmağı,
ağrımayan qolları,
yorulmağa başladı...

## “O darıxır, hardasan?”

Daha adicə sözdü, daha adi xəbərdi
“O darıxır, hardasan?”



Bircə mən deyiləm ki,
indi gör nə qədərdi
özünü səndən asan.

Gör nə qədər ümidlər,
nə qədər ip asılır
yenə daş ürəyindən.
Gör nə qədər yatanı
azan səsi oyatmır,
Gör nə qədər çarəsiz
ümid yığıb qayıtmır
Allahın ətəyindən.

Hərə bircə ev tikir xatirə kərpicindən,
Və bir gün ölü çıxır,
o daxmanın içindən.

Lap istəsən and içim,
bir az sənin canınçün,
biraz mənim canımçün.
“Darıxıram, əzizim” bunu ki,
gizlətmirəm
Bir də deyim biləsən,
mən sənin olmadığın
yuxuya da getmirəm

Səni də istəyirəm, sən yaşayan evi də,
O balaca qızı da, içimdəki divi də.
Gəzdiyin dəhlizi də
sevirəm addım-addım
Bağışla çox danışdım,
bağışla çox uzatdım

Ağrılarım səngiyib
bircə darıxmağım var

**Elvin Paşa**